DOI: https://doi.org/10.36719/2706-6185/48/48-55

**Səadət Cahangirova**
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0004-9875-3146
cahangirova58@bk.ru

# İnklüziv təhsildə müasir modellər

## Xülasə

Ulu Öndər Heydər Əliyev demişdir: *"Təhsil millətin gələcəyidir".*

Ulu Öndər Heydər Əliyev artıq zərb-məsələ çevrilmiş bu kəlmələri deyərkən həm də inklüziv təhsili nəzərdə tuturdu və zaman gostərdi ki, Ulu Öndərin uğurlu təhsil siyasəti hazırda inklüziv təhsilin inkişafı üçün baza rolunu oynamışdır. Dünyada əlilliyi olan uşaqların təhsildən kənarda qaldığı dövrdən "inklüzivlik" dövrünədək əlilliyi olan şəxslərin təhsilinə müxtəlif yanaşmalar olmuşdur.

Müasir təhsil sistemlərinin əsas məqsədlərindən biri inklüziv təhsilin geniş tətbiqini təmin etməkdir. İnklüziv təhsil xüsusi ehtiyaclı uşaqların digər şagirdlərlə birlikdə bərabər hüquqlarla təhsil almasını nəzərdə tutur və bu, sosial ədalətin bərqərar olmasına xidmət edir. Bu istiqamətdə bəzi çətinliklər mövcud olsa da, inklüziv təhsilin tətbiqi dayanıqlı və bərabər cəmiyyətin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Bu məqsədə çatmaq üçün dövlət səviyyəsində inklüziv siyasət gücləndirilməli, qanunvericilik təkmilləşdirilməli, təhsil müəssisələrinin fiziki və pedaqoji mühiti əlçatan olmalıdır. Eyni zamanda, ailələr və cəmiyyət bu prosesə fəal şəkildə cəlb olunmalı, inklüzivlik haqqında maarifləndirmə tədbirləri genişləndirilməlidir. Müəllimlərin bu sahədə bilik və bacarıqları artırılmalı, müasir təlim metodlarına yiyələnmələri təmin olunmalıdır, çünki təcrübə göstərir ki, inklüziv təhsil təkcə fərdi inkişaf üçün deyil, bütövlükdə cəmiyyətin rifahı və inteqrasiyası üçün əvəzsiz rol oynayır.

***Açar sözlər:*** *inklüziv, inklüziv model, siyasət, təcrübə, təhsil, uşaq, əlillik*

**Saadat Jahangirova**
Baku Slavic University
https://orcid.org/0009-0004-9875-3146
cahangirova58@bk.ru

# Modern Models in Inclusive Education

## Abstract

*Great Leader Heydar Aliyev said: "Education is the future of the nation".*

When saying these words, which have already become a proverb, Great Leader Heydar Aliyev also meant inclusive education and time has shown that the successful education policy of the Great Leader has now played a basic role in the development of inclusive education. There have been various approaches to the education of people with disabilities around the world, from the era when children with disabilities were excluded from education to the era of "inclusion".

One of the main goals of modern education systems is to ensure the widespread application of inclusive education. Inclusive education implies that children with special needs receive education with equal rights along with other students, and this serves to establish social justice.Although there are some difficulties in this direction, the application of inclusive education is of great importance in terms of the formation of a sustainable and equal society. To achieve this goal, inclusive policy at the state level should be strengthened, legislation should be improved, and the physical and pedagogical environment of educational institutions should be accessible. At the same time, families and society should be actively involved in this process, and awareness-raising measures about inclusion should


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

be expanded. Teachers' knowledge and skills in this area should be increased and they should be provided with modern teaching methods. Because experience shows that inclusive education plays an indispensable role not only for individual development, but also for the well-being and integration of society as a whole.

***Keywords:*** *inclusive, inclusive model, policy, practice, education, child, disability*

## Giriş

Müasir dövrdə təhsilin əsas prioritetlərindən biri hər bir fərdin bərabər və keyfiyyətli təhsil imkanlarına çıxışını təmin etməkdir. Bu kontekstdə inklüziv təhsil anlayışı xüsusilə ön plana çıxır. İnklüziv təhsil cəmiyyətin müxtəlif üzvlərinin, o cümlədən fiziki, psixoloji və sosial fərqlilikləri olan uşaqların eyni təhsil mühitində, ayrı-seçkilik edilmədən təhsil almasını nəzərdə tutur. Bu yanaşma yalnız əlilliyi olan şagirdləri deyil, eyni zamanda dil, mədəniyyət, sosial-iqtisadi status və digər fərqlərlə seçilən bütün uşaqları əhatə edir.

Son illərdə inklüziv təhsilin həyata keçirilməsi üçün müxtəlif ölkələrdə və təhsil sistemlərində bir sıra müasir modellər və yanaşmalar inkişaf etdirilmişdir. Bu modellər fərqli ehtiyaclara uyğunlaşdırılmış metodları və tədris strategiyalarını əhatə etməklə, hər bir şagirdin potensialını maksimum dərəcədə ortaya çıxarmağı hədəfləyir.

Məqalədə inklüziv təhsilin əsas prinsipləri və bu sahədə tətbiq olunan müasir modellər təhlil ediləcək, onların effektivliyi və qarşıya çıxan çətinliklər müzakirə olunacaqdır.

Bu gün təhsil sahəsində ən çox istifadə edilən anlayışlardan biri "inklüziya" terminidir. İnklüziya (ingiliscə inclusion – daxiletmə) – bütün vətəndaşların, xüsusilə də əlilliyi olan insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir.

İnklüziv təhsil isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hər kəsin, ilk növbədə, sağlamlıq imkanları məhdud (SİM) şəxslərin təhsil hüquqları təmin olunur.

Müasir dövrdə təhsil sahəsində əsas prioritetlərdən biri də məhz inklüziv təhsilin genişləndirilməsidir. İnklüziv təhsil prosesi məktəbəqədər yaşlı uşaqların, şagirdlərin və tələbələrin qabiliyyət və ehtiyaclarına uyğun təhsil proqramları vasitəsilə təhsil prosesinə cəlb olunmasını nəzərdə tutur. (İnklüziv siniflərdə təlimin təşkili)

Müasir şəraitdə prioritetlərdən biri inklüziv təhsildir. İnklüziv təhsil prosesinin hər obyektinin (məktəbəqədər uşaq, şagird, tələbə) onun qabiliyyət və ehtiyaclarına uyğun olan təhsil proqramının köməyi ilə prosesə cəlb edilməsini nəzərdə tutur.

Beynəlxalq ictimaiyyət "inklüziya" anlayışını insanların ictimai həyata fəal şəkildə qatılması kimi dəyərləndirir. Təhsil mühitinə inklüziv yanaşma tətbiq edildikdə məktəblərin bütün şagirdləri və onların valideynləri sağlamlıq imkanları məhdud olan uşaqları cəmiyyətin tamhüquqlu üzvləri kimi qəbul etməyə başlayırlar.

Əlilliyi olan uşaqların təhsil sistemində bərabər hüquqlarının təmin olunması təşəbbüsü Birləşmiş Millətlər Təşkilatına ***(BMT)*** aiddir. BMT, yaranmasından (1945-ci il) etibarən dövlətlərin və hökumətlərin diqqətini əlilliyi olan insanların keyfiyyətli və əlçatan təhsilə çıxış hüquqlarının təmin edilməsinə yönəltmişdir. Bu məsələlər BMT-nin bir sıra mühüm sənədlərində öz əksini tapmışdır:

"İnsan Hüquqları Bəyannaməsi"(1948), "Təhsildə Ayrı-seçkiliyə Qarşı Konvensiya"(1960), "Uşaq Hüquqları Bəyannaməsi"(1959), "Əqli Geriliyi olan Şəxslərin Hüquqları Bəyannaməsi" (1971), "Əlillərin Hüquqları Bəyannaməsi" (1975).

«Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkili ilə bağlı müddəalar nəzərdə tutulsa da, inklüziv təhsilə dair konkret müddəalar yer almamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli, 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili ilə bağlı dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi üçün zəruri olan işlərin görülməsi nəzərdə tutulmuşdur. Bu sənədə uyğun olaraq, 2017-ci ildə "2018–

2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. (İnklüziv siniflərdə təlimin təşkili").

Müasir dövrdə əlilliyi olan uşaqlara yanaşma, onların fiziki və zehni inkişafı əsasən iki model üzrə- ***tibbi*** və ***sosial*** modellər üzrə aparılır. Beynəlxalq və ölkəmizdə qəbul edilmiş hüquqi sənədlərdə əlilliyi olan insanlar xəstə kimi deyil, sağlamlıq imkanları məhdud insanlar olan***(SİM)*** kimi yanaşılması daha məqbul hesab edilir. Bu cür yanaşma isə sağlamlıq imkanları məhdud(SİM) insanlara- əlilliyə dair sosial modeli formalaşdırır.

Sosial model, SİM uşaqların bacarıqlarının inkişafını təmin edən hüquqlarından geniş istifadə istifadə etmələrini və cəmiyyətə inteqrasiyasını təmin edir.

Əvvəllər SİM uşaqlara daha çox tibbi model prizmasından baxılırdı. Bu isə həmin model çərçivəsində əliliyin bir problem kimi görülürməsi, "müalicə", və cəmiyyətdən təcrid kimi tədbirlərin daha geniş tətbiqi ilə nəticələnir,bu da bir sıra hallarda hətta bu uşaqların həyat hüququndan da məhrum edilməsinə səbəb olurdu.Müasir dövrdə isə texnologiyanın və mövcud plan tibbi metodların inkişafı inklüziv təhsilə və sosial inteqrasiyaya daha konstruktiv yanaşmanı mümkün edir. Məsələn, eşitmə məhdudiyyəti olan uşaqlarын eşitmə aparatları ilə təmin edilməsi onların sağlamlıq imkanlaprını artırmaqlı bərabər həm də təhsil və sosial mühitə uyğunlaşmasnı daha da asanlaşdırır. (İnklüziv siniflərdə təlimin təşkili)

Əlillər üçün Ümumdünya Fəaliyyət Proqramı (1982) "hamı üçün təhsil" prinsipini inkişaf etdirməkdə davam edir. Bu sənədin 120-ci bəndində göstərilir ki, əlilliyi olan şəxslərin təhsili imkan daxilində ümumtəhsil məktəbi sistemi çərçivəsində aparılmalıdır. Eyni zamanda, 124-cü bənddə diqqətə çatdırılır ki, hər hansı səbəbdən ümumtəhsil sisteminin imkanları bəzi sağlamlıq imkanları məhdud uşaqlar üçün yetərli deyilsə, həmin uşaqlar müvafiq müddətdə xüsusi müəssisələrdə təhsil almalıdırlar (Kopland 2003, s. 375).

"Salaman Bəyannaməsi" (1994) təhsilin inkişafının əsas istiqaməti kimi "inklüziya"nı elan edir. Bu yanaşmanın əsas fərqi ondan ibarətdir ki, təhsil sistemi hər bir uşağın xüsusiyyətlərinə və ehtiyaclarına uyğunlaşdırılmalıdır, lakin o da istisna edilmir ki, orta məktəblərdə birgə təhsillə yanaşı, bəzi uşaqlar da xüsusi müəssisələrdə təhsil ala bilərlər.

Qeyd edilənlərdən göründüyü kimi inklüziv təhsilin bir sıra əsas prinsipləri var: bu ən əvvəl hər bir şagirdin keyfiyyətli təhsilə çıxışının olması,yəni bərabər imkanlar və əlçatanlığın olmasıdır.

Digər əsas prinsip müxtəliflik və fərdi yanaşmadan ibarətdir,yəni – tədris prosesi fərqli bacarıq və ehtiyacları olan tələbələrə uyğunlaşdırılmalıdır.

Əsas prinsiplərdən biri də ayrı-seçkiliyin qarşısının alınmasından ibarətdir,yəni - cinsiyyət, etnik mənsubiyyət, əlillik, sosial status və digər amillər əsasında fərqləndirmə edilməməlidir.

İnklüziv təhsilin başqa bir əsas prinsipi cəmiyyətin və ailənin iştirakı – yəni inklüziv təhsilin təkcə məktəb daxilində deyil, həm də ailə və cəmiyyətin fəal iştirakı ilə həyata keçirilməsidir.

**İnkluziv təhsildə müasir modellər**

Hər şeydən əvvəl qeyd edilməlidir ki, xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün inklüziv təhsil müasir dünyada xüsusi rol oynayır. Bütün yüksək inkişaf etmiş dövlətlər inklüziv təhsilin xüsusi modellərinin təhsil prosesinə inteqrasiyası prosesində iştirak edirlər.

*Müasir dövrdə inklüziv təhsilin əsas məqsədi* - şagirdlərin təhsildə və sosial sahədə yeni uğurlar əldə etməsinə, həyat imkanlarını zənginləşdirməklə onun daha dolğun olmasına, cəmiyyətə aktiv şəkildə qatılmasına, özünü reallaşdırmasına, konstitusiya hüquqlarını və vətəndaş azadlıqlarını dərk etməsinə nail olmaqdan ibarətdir. Göstərilən məqsədlərə nail olmaq üçün inkluziv yanaşma sistem üzrə planlı olmaqla aparılmalı və məqsədyönlü olmalı, sağlamlıq imkanları məhdud (SİM) uşaqların təhsilinə ardıcıl və davamlı yanaşma tətbiq olunmalıdır.

İnklüziv təhsil inteqrasiya səviyyəsinə görə aşağıdakı modellərə bölünə bilər:

***Tam birləşmiş inteqrasiya; Qismən inteqrasiya; Müvəqqəti inteqrasiya*** (Modeli inklyuzivnoqo obuçeniya: analiz i xarakteristika, 2021)

Bu modellərdə *"inteqrasiya*" və *"həyata keçirmə"* anlayışları əsas anlayışlar kimi istifadə olunur. Bunun səbəbi, cəmiyyətin və dövlətin əlilliyi olan insanlara münasibətinin dəyişdirilməsinə və onların həyatın bütün sahələrində, o cümlədən təhsildə digər vətəndaşlarla bərabər imkanlara sahib olması hüququnun tanınmasına yönəlmiş olmasıdır.

**Qarışıq(və ya hibrid) inteqrasiya modeli.**

İnklüziv təhsilin qarışıq inteqrasiya modeli digərlərindən fərqli olaraq, psixofiziki və nitq inkişafı səviyyəsi yaş normasına uyğun və ya ona yaxın olan uşaqların təhsil aldığı bir modeldir. Bu model çərçivəsində bir və ya iki nəfər xüsusi təhsil ehtiyacı olan uşaq böyük qruplarda (siniflərdə) digər uşaqlarla birlikdə təhsil alır.

İnklüziv təhsilin qarışıq inteqrasiya modelinin inklüziv təhsilin digər modellərindən əsas üstün cəhətləri həm də ondan ibarətdir ki,qarışıq inteqrasiya modelində tələbələr həm ümumi siniflərdə, həm də fərdi dəstəklə təhsil ala bilirlər, bu isə müəllimlərə hər bir tələbəyə uyğun tədris metodu seçmək imkanı verir

Modelin digər əsas üstünlüyü ondan ibarətdir ki, bu uşaqlar eyni zamanda xüsusi təhsil müəllimindən sabit və məqsədyönlü dəstək alırlar. Onlar sinifdə daimi olaraq digər uşaqlarla birlikdə iştirak edir, həmyaşıdları və müəllimlər tərəfindən qəbul olunur və bu zaman özlərini bərabər səviyyədə hiss edirlər,bununla belə bu təhsil modelinin bir sıra çətinlikləri də vardır.

Belə ki,bu təhsil zamanı tələbələrin tam sosial inteqrasiyası çətinləşə bilər,həm də müəllimlər üçün əlavə planlaşdırma və koordinasiya tələb olunur (Siqal, 2017, s. 76).

Beləliklə, həm sosial, həm də akademik baxımdan *inklüziv bir mühit* yaradılmış olur. (Modeli inklyuzivnoqo obuçeniya: analiz i xarakteristika, 2021)

**Qismən inteqrasiya modeli**

Qismən (fraqmentar) inteqrasiya modeli inkişafında problemlər olan uşaqların, normal həmyaşıdları ilə eyni təhsil standartlarını mənimsəməyə və açıq təhsil məzmununu qavramağa hələ tam hazır olmadıqları hallarda tətbiq olunur. Belə hallarda uşaqlar dövlət məktəbində dərslərdə yalnız müəyyən müddət iştirak edirlər, qalan vaxt ərzində isə ya evdə təhsil alırlar, ya da xüsusi *(korreksiya)* məktəblərdə oxuyurlar.

Bu model daimi olaraq uşağın yanında xüsusi təhsil müəlliminin olmasını nəzərdə tutmur, lakin uşağın paralel şəkildə iki məktəbdə təhsil almasına imkan yaradır: biri-xüsusi mütəxəssislərin fəaliyyət göstərdiyi xüsusi təhsil müəssisəsi, digəri isə-adi ümumtəhsil məktəbi. Bununla belə, bu modelin müəyyən çatışmazlıqları da vardır. Belə ki, uşaq adi məktəbdə olduqda peşəkar dəstəyə ehtiyac duya bilər və bu məktəbdə keçirdiyi zaman, bir sıra hallarda isə, onun özünü digər şagirdlərlə bərabər olduğunu hiss etməsi üçün kifayət etməyə də bilər (Siqal, 2017, s. 91).

**Müvəqqəti inteqrasiya modeli**

Müvəqqəti inteqrasiya modeli adından da göründüyü kimi, şagirdlərin müvəqqəti olaraq inklüziv tədris mühitinə daxil edilməsini nəzərdə tutur. Bu modeldə, psixofiziki və nitq inkişaf səviyyəsindən asılı olmayaraq, xüsusi sinifin və ya qrupun bütün şagirdləri sağlam həmyaşıdları ilə birlikdə müxtəlif tədris tədbirlərində iştirak edir. Bu inteqrasiya, adətən ayda ən azı iki dəfə həyata keçirilir.

Bu model inklüziv təhsilin daha geniş və daimi formalarına keçid üçün bir növ hazırlıq mərhələsi hesab olunur və digər modellər arasında müddət baxımından ən qısa olanıdır. (Modeli inklyuzivnoqo obuçeniya: analiz i xarakteristika, 2021)

Müvəqqəti inteqrasiyanın əsas çətinliyi onunla bağlıdır ki, belə qısa müddət ərzində uşaq tədris mühitinə tam uyğunlaşa və özünü rahat hiss edə bilmir. Buna görə də, bu model tətbiq olunarkən uşağın yanında daim defektoloq - yəni fiziki və əqli qüsurları olan uşaqlarla işləyən mütəxəssis olmalıdır.

Digər tərəfdən, uşağın belə inteqrasiyada iştirakı emosional stressin azalmasına səbəb olur, çünki uşaq uzun müddət yeni şərtlər və insanlar qarşısında təcrid vəziyyətində qalmır (Siqal, 2017, s. 105).

**Tam inteqrasiya(tam inklyuziv təhsil) modeli.**

Tam inteqrasiya modeli psixofiziki və nitq inkişaf səviyyəsi yaş normasına uyğun və ya ona yaxın olan, eyni zamanda sağlam həmyaşıdları ilə birgə təhsilə psixoloji cəhətdən hazır olan uşaqlar üçün nəzərdə tutulur. Bu model çərçivəsində belə uşaqlar uşaq bağçalarının adi qruplarına və ya ümumtəhsil məktəblərinin siniflərinə daimi şəkildə inteqrasiya olunurlar.

Uşaqlar eyni zamanda, xüsusi dəstək ehtiyaclarına uyğun olaraq, ya təhsil aldıqları müəssisədə (məsələn, nitq qüsurlu uşaqlar üçün loqopedik mərkəzlərdə), ya da xüsusi təhsil müəssisələrinin müvəqqəti qrup və ya mərkəzlərində əlavə korreksiya dəstəyi alırlar. Məsələn, eşitmə məhdudiyyəti olan uşaqlar səhiyyə sisteminə məxsus audiologiya kabinetlərində lazımi terapiyalarla təmin edilirlər.

Əlilliyi olan uşaq tam təhsil müddəti üçün dövlət məktəbinin adi sinfinə inteqrasiya olunur. İnkişaf qüsurlarının zəif təzahür edən, silinmiş formaları (məsələn, dislaliya, serebral iflicin hamarlanmış formaları kimi nitq pozğunluğu) olan uşaqlar üçün ən uyğundur.

Bu model uşağın adi məktəbin təhsil prosesinə daxil olması üçün lazım olan vaxt baxımından ən uzun modeldir və mütəxəssislərin daimi yardımının olması baxımından bu model birləşmiş inteqrasiyanın xarakterik xüsusiyyətlərinə bənzəyir, lakin tam inteqrasiya üçün bir mütəxəssisin birbaşa uşağın təhsil aldığı yerdə olması xarakterikdir (Modeli inklyuzivnoqo obuçeniya: analiz i xarakteristika, 2021).

Bu modeldə bütün şagirdlər, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar adi siniflərdə təhsil alır. Müəllimlər fərqli ehtiyacları nəzərə alaraq dərs planlarını tənzimləyir və dəstək xidmətləri təqdim olunur.

İnklüziv təhsilin dəyərini dərk etməklə yanaşı, ümumi təhsil müəssisələrində inklüziv təhsil ideyalarının həyata keçirilməsinə mane olan bir sıra amilləri qeyd etmək lazımdır. Əsasən, bu, əlil uşaqlara qarşı dözümsüz münasibəti, bu uşaqları cəmiyyətin tamhüquqlu üzvləri kimi qəbul etməyə psixoloji hazırlıqsızlıqdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri istehzadan, sinif yoldaşları və müəllimlərlə münaqişələrdən, uşaqlarının xüsusi ehtiyaclarını başa düşməməkdən və müvafiq olaraq, uşaqların xüsusi ehtiyacları üçün təhsil prosesinin qeyri-adekvat cavablandırılmasından qorxaraq, uşaqlarını adi məktəbə göndərmək istəmirlər (Brızqalova, 2011, s. 42).

Beləliklə, yuxarıda göstərilən mütəxəssis rəylərini inklyuziv təhsilin müasir modelləri baxımından müqayisə edib, qruplaşdırsaq aşağıdakı nəticəni əldə etmiş olarıq:

| Model | İnteqrasiya Dərəcəsi | Dəstək Növü | Tətbiq Qrupu |
|---|---|---|---|
| tam inkyuziv | Davamlı | Məktəbdə mövcud mütəxəssis dəstəyi | Psixofiziki inkişafı normal olanlar |
| qarışıq | Qismən, müəyyən fənlər üzrə | Müəllim və xüsusi təhsilçi | Geniş qrup |
| qismən | Əsasən ev və xüsusi məktəb+ bəzənümumi məktəb | Minimum müşayiət | Tədrisə hazır olmayanlar |
| müvəqqəti | Məhdud zaman, ayda 1-2 dəfə | Defektoloq müşayiəti | Hazırlıq mərhələsində olan uşaqlar |

Bununla belə, ümumiləşdirsək tam inklüziv təhsilin aşağıdakı üstünlüklərinin olması qeyd edilməlidir.

Tam inklyuziv təhsil modeli tələbələr arasında sosial inteqrasiyanı gücləndirirməklə bərabər həm də,xüsusi ehtiyacı olan şagirdlərin özünə inamını artırır,bundan başqa müxtəlif bacarıqları olan şagirdlər bir-birindən öyrənmək imkanı əldə edirlər,bununla belə tam inklüziv təhsilin bir sıra çətintikləri də ola bilər. Belə ki, bu modelin tətbiqi zamanı müəllimlər üçün əlavə təlim və resurslar tələb olunur, həm də fərdi yanaşma və dəstək sistemləri tam qurulmadıqda effektiv olmaya bilər.

İnklüziv təhsilin bütün modellərini inteqrasiya və ya həyata keçirmə cəhətlərinə görə birinin-digərindən üstün cəhətlərinin və ya çətinliklərinin olmasına baxmayaraq onları ümumiləşdirmək və müqayisə etmək üçün deyə bilərik ki, onların hamısı şübhəsiz ki, inklüzivliyin inkişafı üçün faydalı və zəruridir.

Eyni zamanda, yuxarıda qeyd olunan modellərin bir sıra fərqli cəhətləri ilə yanaşı həm də ümumi cəhətləri var: bu modellərin hər biri sağlam həmyaşıdlar qrupunda xüsusi təhsilə ehtiyacı olan uşağın təhsilinin və təliminin təşkilində müntəzəm olaraq müəllimlərə yardım göstərən xüsusi təhsil müəllimindən inteqrasiya prosesinə məcburi rəhbərlik etməyi tələb edir.

Tam inteqrasiya modelinin yalnız psixofiziki inkişafın nisbətən yüksək səviyyəsini nümayiş etdirən xüsusi uşaqların bir hissəsi üçün təsirli ola biləcəyini vurğulamaq da vacibdir. Bununla belə,

əlilliyi olan uşaqların böyük əksəriyyəti üçün inklüziv təhsilin qismən və xüsusilə müvəqqəti formalarından istifadə etmək məqsədəuyğundur.

Odur ki, inklüziv təhsil modeli hər bir uşaq üçün onun imkanlarından asılı olaraq fərdi seçilməli, həmçinin bəzi modellər üçün xüsusi şəraitin, avadanlıqların və xüsusi texniki avadanlıqların olması nəzərə alınmalıdır.

Göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, son dövrlərdə xüsusi təhsilə ehtiyacı olan uşaqların tədrisi və tərbiyəsi üçün daha çox innovativ yanaşmalara və modellərə ehtiyac vardır. Sosial statusundan, irqindən, dini mənsubiyyətindən, fiziki və əqli qabiliyyətlərindən asılı olmayaraq, inklüziv təhsil hər bir uşağa öz fərdi inkişaf ehtiyaclarını ödəmək və inkişaf səviyyəsinə uyğun təhsil almaq imkanı yaradır. Bu, inklüziv təhsilin əsas prinsiplərindən biri olan *bərabər hüquqların* təmininə xidmət edir.

Bu gün Azərbaycanda inklüziv təhsilin inkişafı məsələsi yalnız valideynlərin və pedaqoji kollektivlərin deyil, bütövlükdə cəmiyyətin diqqət mərkəzindədir. Lakin bu sahədə qarşıya çıxan əsas problemlərdən biri tətbiq olunan metodların spesifikliyi, peşəkar kadr hazırlığının yetərli səviyyədə olmaması və ixtisaslaşmış mütəxəssislərin çatışmazlığıdır.

Təcrübə göstərir ki, inklüziv təhsilin uğurlu tətbiqi üçün yalnız qanunvericilik və proqram sənədləri kifayət etmir. Bu sahədə kompleks yanaşma tələb olunur: təhsil müəssisələrinin inklüzivliyə hazırlanması, müəllimlərin ixtisasartırması, valideynlərin maarifləndirilməsi, eləcə də cəmiyyətin bu prosesə müsbət münasibətinin formalaşdırılması zəruridir.

Bu gün Respublikamızda inklüziv təhsilin tətbiqini təmin edən müvafiq qanunvericilik bazası mövcuddur və saglamlşq imkanları məhdud olan uşaqlar da daxil olmaqla uşaqların rifahının yüksəldilməsi daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Ulu öndər Heydər Əliyevin bu sahədə əsasını qoyduğu siyasət hazırda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Azərbaycan müstəqillik dövründə insan hüquqları, xüsusilə uşaq hüquqları ilə bağlı beynəlxalq saziş və konvensiyalara qoşulmuş, bununla bağlı üzərinə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklərdən biri də ayrı-seçkiliyə yol vermədən əlilliyi olan şəxslərin təhsil hüququnun təmin edilməsi və bütün təhsil pillələrində inklüziv təhsilin təşkil olunmasıdır.

Həmçinin qeyd edilməlidir ki, inklüziv təhsilin inkişafı elmi, metodiki və inzibati resursları əhatə edən mürəkkəb, çoxşaxəli prosesdir. İnkluzivlik ideyasını qəbul etmiş müəllimlər və təhsil müəssisələrinin rəhbərliyi xüsusilə təhsil prosesinin təşkilində, mərkəzi fiqurun uşaq olduğu təhsil prosesinin bütün iştirakçıları arasında qarşılıqlı əlaqə mexanizminin işlənib hazırlanmasında köməyə ehtiyac duyurlar. İnklüziv məkan təkcə uşaqlar üçün deyil, həm də böyüklər üçün açıqlıq və əlçatanlıq deməkdir.

**İnklüziv təhsilin inkişafı üzrə əsas fəaliyyət istiqamətləri**

2021-ci ildən etibarən ARTİ inklüzivliyin təşviqi və inklüziv təhsilin tətbiqinə aşağıdakı əsas istiqamətlər üzrə dəstək verir:

***1. Maarifləndirmə***

Ümumi təhsil müəssisələrində inklüzivlik mədəniyyətinin formalaşdırılması məqsədilə pedaqoji və inzibati heyətlə yanaşı, şagirdlər və onların valideynləri ilə maarifləndirici görüşlər keçirilir. Bu görüşlər zamanı iştirakçılara inklüzivliyin mahiyyəti və əhəmiyyəti, əlilliyə tibbi və sosial yanaşma, məktəb heyətinin və valideynlərin rolu haqqında məlumat verilir. Bununla yanaşı, sosial videoçarxlar da hazırlanaraq cəmiyyətə təqdim olunur.

***2. Təlimlərin keçirilməsi***

Təlimlərin əsas məqsədi müəllim, korreksiyaedici pedaqoqlar və psixoloqların inklüziv təhsil sahəsində bilik və bacarıqlarını artırmaqdır. Təlim mövzularına inklüziv dəyərlər, əlilliyə sosial və tibbi yanaşma, uşaqyönümlü pedagoji yanaşmalar, Universal Öyrənmə Dizaynı (UÖD), sinif strategiyaları və tədris prosesinin planlaşdırılması daxildir. Həmçinin, Psixoloji-Tibbi-Pedaqoji Komissiyaların fəaliyyətinə dəstək məqsədilə təlimlər təşkil olunur.

***3. Metodik dəstək***

İnklüziv təhsilin keyfiyyətli olması həm də bu təhsilə verilən lazımi metodiki dəstəkdən çox asılıdır, odur ki, inklüziv təhsilin təmin edilməsi üçün müəllimlərə, korreksiyaedici pedaqoqlara,

psixoloqlara və məktəb rəhbərlərinə mentorluq və Fərdi Təlim Planlarının hazırlanması üzrə davamlı metodik dəstək göstərilir. Mentorluq prosesi çərçivəsində tədris zamanı yaranan çətinliklərin aradan qaldırılması, valideynlərlə əməkdaşlıq və digər praktiki məsələlər üzrə məsləhətlər verilir. (Azərbaycan Respublikasının Təhsil İnstitutu, n.d.)

Araşdırmalar göstərir ki, hazırda Respublikamızda 60 mindən artıq əlilliyi olan uşaq mövcuddur və onların inklüziv təhsilə cəlb edilməsi üçün bir sıra tədbirlər görülməklə keyfiyyətli təhsil almaları aşagıdakı qaydada təşkil edilmişdir:

1) 1105 nəfər xüsusi təhsil; 2)2664 nəfər isə xüsusi internat məktəblərində (onlardan 1353 nəfəri həmin təhsil müəssisələrində gecələyir) təsil alır; 3) 7750 nəfər evdə təhsilə; *4)*268 nəfər isə inklüziv təhsilə cəlb edilmişdir (Əsədova, 2020, s. 36).

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaş üçün bərabər təhsil imkanlarının yaradılmasına və yarana biləcək ayrı-seçkiliyin yolverilməzliyinə, deməli, bu təhsilin də ugur qazanacagına təminat verir. Bundan əlavə, "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün(SMİ) inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" inklüziv təhsilin bütün pillələr üzrə həyata keçirilməsini və bu məqsədlə maneəsiz təhsil mühitinin yaradılmasını nəzərdə tutur (Azərbaycan Respublikası Nazirlər Kabineti, 2018).

Bununla yanaşı, ümumi təhsil müəssisələrində, inklüziv təhsilin təşkili ilə bağlı məsələlərin hüquqi cəhətdən tənzimlənməsi və hüquqi bazanın daha da genişləndirilməsi məqsədi ilə 2023-cü ilin fevral ayında təsdiq edilmiş "İnklüziv təhsilin təşkili Qaydası" sənədi isə bu sahədə olan problemlərin həllinə böyük dəstəkdir (Azərbaycan Respublikası Nazirlər Kabineti, 2018).

Beləliklə, tam əsasla belə bir nəticəyə gəlmək mümkündür ki, yaradılmış və reallıqlar nəzərə alınmaqla daima təkmilləşdirilən qanunvericilik bazası maneəsiz inklüziv təhsil alımasını təmin edəcək.

Ən nəhayət, sonda qeyd etmək lazımdır ki, dövlət sağlamlıq imkanları məhdud uşaqların təhsil probleminə daha çox diqqət yetirməlidir, çünki bu uşaqlar sağlam uşaqlarla bərabər hüquqlara malik olmalıdırlar, çünki onların arasında bacarıqlı, istedadlı uşaqlar da var. Bütövlükdə dövlətin, xüsusən də cəmiyyətin mühüm vəzifələrindən biri onların ictimai həyata "inteqrasiya"sına kömək etməkdir. Qarşıya qoyulmuş bu vacib məsələnin ugurlu həllinə nail olunması,inklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsini genişləndirmək, Azərbaycanda əlilliyi olan uşaqların təhsil hüququnun təminatına dəstək vermək, inklüziv təhsilin keyfiyyətini yüksəltmək və məktəblərdə kadr potensialını gücləndirmək məqsədilə 2021/2022-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikasının Təhsil İnstitutu *(ARTİ),* Elm və Təhsil Nazirliyi və UNICEF ilə birgə "İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi" adlı layihə həyata keçirir. Sözügedən layihə çərçivəsində hazırda 10 region üzrə 22 ümumi təhsil müəssisəsində ümumilikdə 205 saglamlıq imkanları məhdud olan(SMİ) şagird təhsilə cəlb edilmişdir (Azərbaycan müəllimi, 2010).

Bununla bərabər, inklüziv təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş digər tədbirlər də görülür. Belə ki, Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) 2018-ci ildən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu (UNICEF) ilə birlikdə və əməkdaşlıqda bir sıra ugurlu layihələr həyata keçirir. Bu istiqamətdə, yəni 2018-2020-ci illərdə saglamlıq imkanları məhdud olan(SMİ) uşaqların ümumi təhsil müəssisələrində daha keyfiyyətli təhsil almaq, cəmiyyətə daha tez inteqrasiya olunması imkanlarına lazımi dəstəyin verilməsi məqsədilə Müəllim İnkişafı Mərkəzləri (həm də Resurs Mərkəzləri kimi tanınır) yaradılmış və Bakı, Gəncə, Sumqayıt, Quba, Şəki, Ağcabədi və Qazax reqionları daxil olmaqla cəmi 7 region üzrə yaradılaraq 9 məktəbdə fəaliyyət göstərən həmin mərkəzlər müəllimlərin peşəkar fəaliyyətinə və inkişafına layiqli xidmət göstərmişdir (Azərbaycan Respublikasının Təhsil İnstitutu, n.d.).

## Nəticə

Nəticə olaraq demək olar ki, inklüziv təhsildə tətbiq olunan yeni modellər təhsilin daha ədalətli, bərabər və hərtərəfli olmasına mühüm töhfələr verir. Bu modellər şagirdlərin fərdi ehtiyaclarına

əsaslanan çevik yanaşmaları, pedaqoji yenilikləri və çoxşaxəli əməkdaşlıq prinsiplərini önə çəkərək, inklüzivliyin təhsil sisteminə real inteqrasiyasını təmin edir. Universal dizayn, differensial tədris kimi yanaşmalar müəllimlərin adaptasiya imkanlarını artırır, eyni zamanda müxtəlif qruplardan olan şagirdlərin tədris prosesində tam iştirakını təşviq edir.

Bununla belə, bu modellərin uğurla tətbiqi üçün yalnız pedaqoji deyil, həm də inzibati, sosial və texniki dəstəklərin təmin olunması vacibdir. Müəllimlərin davamlı olaraq ixtisasartırma proqramlarına cəlb edilməsi, valideynlərin maarifləndirilməsi və inklüziv mühitin yaradılması bu sahədə uğurun əsas şərtlərindəndir. Beləliklə, inklüziv təhsildə yeni modellərin tətbiqi yalnız təhsil sektorunun deyil, bütövlükdə cəmiyyətin inkişafına xidmət edən strateji bir yanaşma kimi qiymətləndirilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan müəllimi. (2010, 10 dekabr). Səh. 4. https://mail.old.muallim.edu.az
2. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2018). 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. https://e-qanun.az/framework/38822
3. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (n.d.). Azərbaycanda inklüziv təhsil. https://arti.edu.az/inkluziv
4. Brızqalova, S. O., & Zak, Q. Q. (2011). İnklüziv təhsil: beynəlxalq təcrübə. In İnklüziv təhsil: metodologiya, praktika, texnologiya (s. 41–43). Elmi-praktik konfrans materialları.
5. Əsədova, B. (2020). İnklüziv cəmiyyətin formalaşmasında inklüziv təhsilin əhəmiyyəti və rolu. İnklüziv təhsil: reallıqlar, çağırışlar, perspektivlər. Beynəlxalq elmi konfransın məqalələr toplusu, 36–37.
6. İnklüziv siniflərdə təlimin təşkili. (n.d.). Tipii.edu.az. https://tipii.edu.az
7. Kopland, M. (2003). Sorğuya rəhbərlik: məktəbin təkmilləşdirilməsi üçün potensialın yaradılması və davamlılığı. Təhsilin Qiymətləndirilməsi və Siyasətin Təhlili, 375–395.
8. Modeli inklyuzivnoqo obuçeniya: analiz i xarakteristika. (2021, 26 dekabr). Obrazovalnaya sosialnaya set. https://nsportal.ru/npo-spo/library/2021/12/26/m
9. Siqal, N. (2017). İnklüziya bu gün: müsbət və mənfi cəhətləri. Monoqrafiya. Kazan: Vətən.

Daxil oldu: 25.03.2025
Qəbul edildi: 23.05.2025